*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 1*
*Səhifə: 74-78*
*https://doi.org/10.59849/2663-4368.2025.1.74*
*ISSN 2663-4368*
*E-ISSN 2709-2699*

# Musa Urudun Poeziyası Müstəqillik illərində

**Bahar Məmmədova Bərdəli**
Filologiya elmləri doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: baharmemmedova288@gmail.com

**Annotasiya.** Ötən əsrin 80-ci illərində ədəbiyyata gələn Musa Urudun yaradıcılığı özünəməxsusluğu ilə seçilir və Qərbi Azərbaycan bölgəsini – ən çox Zəngəzur mahalını, Urud obasını təmsil edir. Elə 80-ci illərin sonunda Ermənistanın bu əraziləri işğal etməsi nəticəsində Zəngəzur əhalisi, o cümlədən Musa Urud öz doğma yurd-yuvasını tərk etmişdir. Harada yaşamasından asılı olmayaraq, şair həmişə üzünü Zəngəzura – Uruda tutaraq bu yerləri daima öz poeziyasında təsvir, tərənnüm etmişdir. Onun iki poemasının və yüzlərlə şeirinin baş qəhrəmanı bu qədim Azərbaycan torpağı və onun qədim elləridir.
Məqalədə Musa Urudun poetik yaradıcılığı araşdırılmış, şeir-poemaları mövzular üzrə qurublaşdırılmış və təhlilə cəlb edilmişdir.
Musa Urud, eyni zamanda, Qərbi Azərbaycanın tarixi keçmişini, etnoqrafiyasını, toponimlərini və siyasi quruluşunu da öz monoqrafiyalarında yazıb oxucularına təqdim etmişdir.
**Açar sözlər.** Musa Urud, Zəngəzur, Urud, şeir, poema, Qərbi Azərbaycan

**Məqalə tarixçəsi:** göndərilib – 03.06.2025; qəbul edilib – 17.06.2025

## The poetry of Musa Urud during the years of independence

**Bahar Mammadova Bardali**
Doctor of Philological Sciences, Associate Professor
Nizami Ganjavi Institute of Literature, ANAS
E-mail: baharmemmedova288@gmail.com

**Abstract.** The literary work of Musa Urud, who entered the literary scene in the 1980s, stands out for its originality and represents the region of Western Azerbaijan – primarily Zangazur and the village of Urud. In the late 1980s, as a result of Armenia's occupation of these territories, the population of Zangazur, including Musa Urud himself, was forced to leave their native land. Regardless of where he has lived since, the poet has always turned toward Zangazur and Urud, consistently depicting and glorifying these places in his poetry. The main protagonist of his two poems and hundreds of verses is this ancient Azerbaijani land and its historical communities.
This article explores Musa Urud's poetic creativity, classifies his poems and poetic works by theme, and offers a literary analysis.
Additionally, in his monographs, Musa Urud has presented to readers the historical past of Western Azerbaijan, its ethnography, toponymy, and political structure.
**Keywords:** Musa Urud, Zangazur, Urud, poetry, poem, Western Azerbaijan.

**Article history:** received 03.06.2025; accepted – 17.06.2025

## Giriş / *Introduction*

Müstəqillik illəri Azərbaycan poeziyasının formalaşmasında, zənginləşməsində Musa Urud yaradıcılığı bu və ya digər dərəcədə müsbət rol oynamışdır. XX əsrin 80-ci illərinin ikinci yarısında ədəbiyyata gələn Musa Urud özünü bir şair kimi 90-cı illərdə təsdiq etmişdir. Azərbaycan ədəbiyyatının Qərb bölgəsini təmsil edən şairin ilk kitabı 1994-cü ildə Bakıda nəşr edilmişdir. Daha sonra ardıcıl olaraq onun 90-cı illərdə "Tanrı şam yandırıb", "Ömürdən 101 şeir", "Üzü haqqa gedirəm" adlı şeir kitabları çap olunmağa başlamışdır. İlk şeirləri Vətənin təbiəti, gülü-çiçəyi ilə bağlı olan şairin sonrakı dönəmlərdə başlıca mövzusu Vətənin ağrı-acıları, onun düşmənə qarşı mübarizəsi, Qarabağ dərdi və s. olmuşdur.

## Əsas hissə / *Main Part*

Musa Urud yaradıcılığının müxtəlif mərhələlərində sırf təbiət şeirləri yazmışdır. Kiçik yaşlı uşaqlar və məktəblilər üçün nəzərdə tutulmuş bu tip şeirlər sonralar "Vətən and yerimiz" adlı dərs vəsaiti kimi də dərc edilmişdir [4]. "Zəncirotu", "Yemişan", "İtburnu", "Kəklikotu", "Yay tətilində", "Tut ağacının qış yuxusu", "Yarpaq", "Niyə yağış yağır" və s. kimi şeirlər onun təbiətə sevgisindən yaranıb. "Sevin bu təbiəti" başlığı altında toplanan bu şeirlər uşaqların mənəvi dünyasının formalaşmasında, təbiəti sevməsində mühüm rol oynayır:

Təbiət bir anadı,
Övladıyıq onun biz.
Bulaqlar ana südü,
Doğma Vətən nənnimiz.
Başı qarlı zirvələr,
Onun ağ çalmasıdır.
Güllü-çiçəkli çöllər,
Açılan yaxasıdır.... [4, s.60]

Pedoqoji elmlər doktoru, professor Əjdər Ağayev yazır: "Bədi yaradıcılığa ötən əsrin 80-ci illərində başlayan Musa Urud ilk şeirlərindən özünəməxsus sözü, nəfəsi, deyim tərzi, obrazlı poetik lövhələri ilə diqqəti çəkmiş, istedadlı şair kimi təqdir edilərək ədəbiyyata qədəm basmışdır" [1, s.5].

Musa Urudun yaradıcılığında məhəbbət şeirləri də kifayət qədərdi. "Hər nə varsa..." şeir kitabında onun məhəbbətə həsr etdiyi şeirlər "Sevgiyə gedən yollar" başlığı altında toplanmışdır. "Yeri var", "Nağıl", "Necə qoruyaydım", "Yol ayrıcında", "Məndən sonra", "Qayıtma", "Qayıt gəl" kimi onlarca şeir şairin lirik qəhrəmanının mənəvi dünyasını tərənnüm edir. Lakin bu məhəbbət şeirlərinin çoxu itirilmiş Vətəni də təsvir edir. Şair nədən, kimdən, hardan nə yazır yazsın ordan mütləq Vətən həsrəti də boylanır:

Tutub yaşamağa umud qalmadı,
Ruhum qışlamağa bir yurd qalmadı,
Musaya o boyda Urud qalmadı,
Necə qoruyaydım bu məhəbbəti?!
[5, s.46]

Başqa bir şeirində şair yenə pıçıldayır: "Nə bu eşqi, nə Urudu, // Nə yarıtdım, nə unutdum, // A gözlərim, o buludu, // Sıxım dağlara-dağlara!" [5, s.63]

Müstəqillik illərində şairin yaradıcılığında başlıca yeri müstəqillik uğrunda gedən mübarizə, 20 Yanvar qırğını, Qarabağ problemi, həmçinin qədim Azərbaycan torpaqları olan Zəngəzur, İrəvan, Göyçə gölü kimi ərazilərin erməni vəhşiliyinin qurbanına çevrilməsini əks etdirən şeir-poemalar tutur. Dədə-baba yurdu olan Zəngəzurun Urud kəndindən didərgin düşməsi şairi yaradıcılığı boyu izləyir:

Yüz on evli, yüz min yaşlı Urudum,
Sənin üçün darıxmışam, a yurdum...
... Babəklərsiz qalıb "Babək qalası",
Bu qisası alasıyam, alası... [4, s.24]

Bu şeir haqqında Əjdər Ağayev belə yazır: "Doğulduğu Urud kəndinə həsrətlə boylanan şair ata-ana yurdun təsəllisini bu doğma adı öz adında yaşatmaqla, bir də çağlayan qəlbindən süzülən arzulu, inamlı misralarda tapır" [1, s.6]. Azərbaycan torpaqlarında Ermənistan dövlətinin yaranması ilə heç cür barışmayan şair bir

gün geri dönəcəyini poetik şəkildə tez-tez vurğulayır:

Qızıl lalə yanağında qan olub,
Sarı sünbül damağında tam olub,
Ata-baba ocağımda şam olub,
Gecə-gündüz yanasıyam, yanası,
Doğma yurda dönəsiyəm, dönəsi!
[4, s.24]

Hələ ki, şairin şeirlərində yaşayan böyük Zəngəzur eli, Urud kimi yüzlərlə kənd düşmən, yağı əlindədir. Lakin Musa Urud inamla bildirir ki, "Bu yurdu yağıya verməyəcəyik!"

Xalq şairi Nəriman Həsənzadə yazır: "Musa Urud taleyi olan şairdir. Urud onun Vətənidir, tarixi keçmişi, işıqlı gələcəyidir... Bu balaca Urud kəndi cildlərə sığmır. Musa Urudun humanizmi, insansevərliyi onun şeirlərini əl-əl, sözlərini könül-könül gəzdirməlidir. Gəzdirir də" [2, s.3, 6].

"Gördüm səni Göyçə gölü, // Düşmədi kölgəm üstünə...// "Gördüm səni Ağrı dağı, Qoşun çəkdi qəm üstümə...// Gördüm səni Yazı düzü, Qalmayıb bir dən üstündə..." – deyən şairin Vətən həsrətli şeirləri yetərincədir. "Gəl gedək dağlara", "Bu dağın dalı", "Kədərimə söykənən dağ", "Dağlar yıxılmasın", "Didərginlik", "Bir parça Vətən torpağı" kimi şeirləri bu qəbildəndir. Şair üzünü dağlara tutaraq öz həsrətini, qəm-kədərini, vətənsizliyini dilə gətirir, Vətən dağlarını insaniləşdirib onunla dərdləşir.

20 Yanvar faciəsinə həsr etdiyi "Gedirəm şəhid olmağa" şeiri xüsusilə diqqəti çəkir. Şair Vətənin Azadlığı, Müstəqilliyi, Bütövlüyü üçün şəhid olmağa hazırdır. "Vətən – qibləgahım, Azadlıq – andım, // Bilirəm bu yolun qapısı qandı, // Məni Bayraq kimi torpağa sancın, // Gedirəm bu yolda şəhid olmağa!" [4, s.35]

Musa Urudun özü şeir haqqında yazır: "Mənim düşüncəmə görə əsl şeir bir neçə keyfiyyəti özündə birləşdirməlidir: şeirdə orjinal fikir olmalıdır, şeirdə hər oxucunun öz düşüncəsincə dəyərləndirdiyi sirli məna qatı olmalıdır, şeirdə qığılcım, daxili enerji və hərəkət olmalıdır..." [8, s.8] Bu mənada Musa urudun orjinal misraları, hər şeirin öz məna yükü və daxili enerjisi oxucusuna da sirayət eləyə bilir.

Musa Urudun çap olunmuş beş poeması var. Onun dördü Azərbaycan xalqına qarşı törədilən erməni vəhşiliyindən, digəri isə Çeçen xalqının azadlıq arzusundan bəhs edir. "Bu dəstə hara gedir" poeması 1988-ci ilin dekabrında Qərbi Azərbaycandan – Zəngəzur mahalının Urud kəndindən zorla çıxarılan 107 nəfərin qarşılaşdığı müsibətləri əks etdirir. Şimali Azərbaycana gələndə artıq onlar zəngəzurlu, urudlu yox, "didərginlər" adlanırdılar. Real həyat hadisələri ilə zəngin olan, obrazlılığı, bədii sənətkarlıq siqləti ilə seçilən, fərqlənən bu poema şairin poetik yaradıcılığında və ədəbiyyatımızda xüsusi yer tutur.

İti zəncirdə qalmış,
Kütü təndirdə qalmış,
Başı kəndirdə qalmış
Bu dəstə hara gedir?! [7, s.300]

Nəriman Həsənzadə qeyd edir ki, "...Bu poema müasir poeziyamızın şah əsərlərindəndir".

Tənqidçi Vaqif Yusiflinin də bu poema haqqında maraqlı fikirləri var: "Musa Urud o illərdə ağrıdan, dərddən yazırdı və bu ağrını, dərdi az qala ucuzlaşdıran bəzi şairlərdən fərqli olaraq dərdin poeziyasını yaradırdı. Daha doğrusu, dərdin poeziyasını poeziyanın dərdinə çevirirdi" [10].

"Urudlular" poeması şairin doğulduğu kəndin tarixindən, yaxın keçmişindən, ağzı dualı nənələrdən, babalardan, bütün Azərbaycana səpələnmiş, hər birisinin ürəyində Urud boyda həsrət olan urudlulardan söhbət açır.

Tarix – Vətən, Vətən – Tarix idi Urud.
Daş üstündə daşa dönmüş
Torpaq altda yatan tarix idi Urud!
[7, s.313]

"Qarabağ balladası" və "Savaş deyir" poemaları Birinci və İkinci Qarabağ müharibələrinin əks-sədasıdır. "Daha səbir qalmayıb, Dözümün dözümü yox, // Bu şeytan düyününü kəsməsən çözümü yox!" – deyən şair "Savaş deyir" poemasında İkinci Qarabağ müharibəsindən, Ali Baş Komandanın səfərbərlik əmrindən, Xalqın qeyrətindən, hərbçilərin qəhrəmanlığından poetik boyalarla real, təbii və səmimi lövhələr yaradır.

Dildə dua, əldə Quran savaş deyir,
Ali rəhbər, Baş Komandan savaş deyir!

Diz səngərdə, göz hədəfdə, əl tətikdə,
On milyonluq Azərbaycan savaş deyir!
[7, s. 323]

Birinci Qarabağ müharibəsindən fərqli olaraq İkinci Qarabağ müharibəsində Xalq-Dövlət birliyi öz bariz nəticəsini göstərdi. Bu birlik Böyük Zəfəri, Qələbəni təmin etdi. Yağı düşmən qovuldu, yurdlar azad oldu və azad nəfəs almağa başladı. Musa Urud ictimai-siyasi hadisələrə vaxtında və yerində öz poetik sözünü deyə bilən şairlərimizdəndi. Onun Milli qəhrəmanlarımız haqqında onlarca poetik düşüncələri var. “Paşam hey!”, “Bir igid”, “Oxşama”, “Son döyüş” kimi şeir parçaları igid döyüşçülərin qəhrəmanlıq salnaməsidir:

Ruhun – torpaq, Andın – Vətən,
Qayıtmadın son döyüşdən.
Ölümü öldürüb, ölən,
Bu dərddimi, şöhrətdimi!? [7, s.145]

Şair, publisist Əkbər Qoşalı Musa Urudun poeziyasından söz açarkən yazır: “Musa Urudun poetik dünyası milli dəyərlərə, bəşəri düşüncəyə və bunlarla yanaşı, özünəməxsus üsluba malikdir. Şair, millət vəkilinin yaradıcılığı oxucunu həm düşünməyə, həm də, necə deyərlər, hiss etməyə sövq edir, toplumdakı mənəvi-əxlaqi qayğılara çəkir” [3]. Bu bir həqiqətdir ki, Musa Urud vətənpərvər şairdir. Vətənini, torpağını, xalqını sevən şair onu bütün misralarında əks etdirərək əbədiləşdirə bilib.

Taleh Şahsuvarlının Musa Urud haqqında yazdığı məqalədə bir fikir diqqətimi çox çəkdi: “Bizim, bütün cəmiyyətimizin Zəngəzur ruhunu diri saxlayan insanlar arasında əlimizi tuşlaya biləcəyimiz adamdır Musa Urud – İnsan kimi, Ziyalı kimi, Ədib kimi, Deputat kimi...” Daha sonra gənc tədqiqatçı yazır: “Azərbaycanın heç bir ziyalısı, içində işıq olan heç bir kimsə Vətən davasına çıxanda təmənna güdməyib. Təmənnamız – fədakarlıq, fədakarlıq – əzmimiz olub”. [9]

## Nəticə / *Conclusion*

Beləliklə, Musa Urud yaradıcılığı, xüsusilə poeziyası Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutmaqdadır. O, bu yeri öz taleyindən, didərgin həyatından, Böyük Zəngəzur elindən, torpağından, onun tarixindən yazaraq qazanmışdır. Real həyat hadisələrini, gerçəkliyi təbii, səmimi şəkildə əks etdirən bu əsərlər daim diqqət mərkəzində olmuşdur. Erməni vəhşiliyini, acgözlüyünü, qəddarlığını tək poeziyasında deyil, həm də tarixi əsərlərində, siyasi fəaliyyətində, çıxışlarında sərgiləyən Musa Urud Böyük Sözün ucalığına yüksələ bilmişdir.

## Ədəbiyyat /*References*


1. Ağayev, Ə. Ocağında közü olan şair. Ön söz. Musa Urud. Vətən and yerimiz. – Bakı: Avropa, 2004, s. 5-10
2. Həsənzadə, N. Musa Urudun poetik dünyası və Vətən sevgisi. Ön söz. Musa Urud. Payız Küləyi. – Bakı: Nurlar, 2021, s. 3-10
3. Qoşalı, Ə. “Azdı, çoxdu, mükafatdı bu ömür”. Bakı: Ədəbiyyat və incəsənət portalı. 13 dekabr 2024. (https://www. Edebiyyatveincesenet.az)
4. Urud, M. Vətən and yerimiz. – Bakı: Avropa, 2004, 112 s.
5. Urud, M. Hər nə varsa... – Bakı: Avropa, 2008, 304 s.
6. Urud, M. Alma ağacı. – Bakı: Nurlar, 2021, 168 s.
7. Urud, M. Payız küləyi. – Bakı: Nurlar, 2021, 336 s.
8. Urud, M. Söz mənim taleyimdir. Ön söz. Musa Urud. Hər nə varsa. – Bakı: Avropa, 2008, s. 5-8
9. Şahsuvarlı, T. Tale adamı, Zəngəzur adamı: Musa Urud. Ədəbiyyat qəzeti, 15 fevral 2025. (https: // edebiyyatqezeti.az)

10. Yusifli, V. "Sənə deyim dərdimi, alma ağacı". Ədəbiyyat qəzeti, 18 noyabr 2021. (https://edebiyyatqezeti.az)

## Поэзия Мусы Уруда в годы независимости

**Бахар Мамедова**
Доктор филологических наук, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: baharmemmedova288@gmail.com

**Аннотация.** Творчество Мусы Уруда, пришедшего в литературу в 80-х годах прошлого века, отличается своей самобытностью и представляет регион Западного Азербайджана — преимущественно Зангезур и село Уруд. В конце 80-х годов, в результате оккупации этих территорий Арменией, население Зангезура, включая самого Мусу Уруда, было вынуждено покинуть родные земли. Где бы он ни жил, поэт всегда обращается к Зангезуру и Уруду, неизменно воспевая эти места в своей поэзии. Главным героем двух его поэм и сотен стихотворений является эта древняя азербайджанская земля и её исторические общины.
В статье исследуется поэтическое творчество Мусы Уруда, его стихи и поэмы классифицируются по тематикам и подвергаются анализу.
Кроме того, Муса Уруд в своих монографиях представил читателям историческое прошлое Западного Азербайджана, его этнографию, топонимию и политическое устройство.
**Ключевые слова:** Муса Уруд, Зангезур, Уруд, стихотворение, поэма, Западный Азербайджан.